S.Ə.XASIYEVA
e-mail: mnermin520@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.083

ALMAN DİLİNDƏ KONYUNKTİV II BƏDİİ ƏSƏRLƏRDƏ İFADƏ VASİTƏLƏRİ

Xülasə. *Məqalədə qeyd edilir ki, konyunktiv II feilin arzu şəklinin formasıdır və real deyil, mümkün, güman edilən, arzu olunan hərəkətləri ifadə edir. Konyunktiv II müasir alman dilində geniş yayılmışdır. Konyunktivin formaları həm sadə, həm də mürəkkəb cümlələrdə geniş işlədilir. Onlar həm mütləq, həm də nisbi mənalarda işlədilir. Konyunktiv II zaman formalarının mənası və istifadəsi bir çox hallarda onların xəbər formasında istifadəsi ilə üst-üstə düşmür. Konyunktiv formalar xəbər formalarından zaman və modallıq mənaları ilə fərqlənir.*

Açar sözlər: *konyunktiv, qrammatika, semantika, modallıq, feil, mikrokontekst, cümlə*

Müasir alman dilinin qrammatikasında konyunktivin formalarının zənginliyi, eləcə də konyunktivin zaman formalarının ikili (modal-zaman) təbiətinə rəğmən alman dilini öyrənən insanların ondan istifadəsində böyük çətinliklər yaranır. Bunun nəticəsi kimi, alman dilində konyunktivin işlədilməsi ilə bağlı xeyli sayda mübahisəli məsələlər də qalmaqdadır. F.Y.Veysəlliyə görə, alman dilində "feil cümlənin mərkəzini təşkil etməklə hərəkəti və vəziyyəti bildirir, xəbər rolunda çıxış edir, müxtəlif formativlər qəbul edir. Feilin alman dilində 3 əsas forması (infinitiv, preteritum, partisip II) və şəkli – indikativ (xəbər), əmr (imperativ), konyunktiv (arzu, istək) vardır" [1, s. 288].

Alman dilində konyunktivdəki feil indikativdən tərkibində /-e/ qrammatik şəkilçisinin olması ilə fərqlənir. Konyunktiv indiki, preterit, perfekt, futurum I və II zaman sisteminə malikdir. Konyunktiv sisteminə şərtiliyin iki forması (conditionalis I və II) daxildir. Konyunktivin zaman formaları indikativin zaman formalarından yalnız qismən zaman münasibətləri ifadə etməyə xidmət etmələri ilə fərqlənir. Onların konyunktivdə əsas funksiyası modallığın müxtəlif çalarlarını, yəni qeyri-müəyyənliyin, fərziyyələrin, şübhələrin, istəklərin və s. ifadəsini ifadə etməkdir. Məsələn: /Es wäre interessant, diese Frage zu erörtern// (Bu sualı müzakirə etmək maraqlı olardı); /Hätte ich doch mehr Zeit! (Kaş daha çox vaxtım olsaydı!). Hər iki cümlədə preterit işlədilir, lakin burada nəinki keçmişdə olan hərəkəti ifadə etmir, əksinə, hər iki cümlə kontekstdən asılı olaraq həm indi, həm də gələcək üçün keçərli ola bilər.

Alman dilində konyunktivin modallığını ifadə edən bütün vasitələrə aşağıdakılar daxildir: 1) istək bildirən cümlələrdə konyunktivlər (Optativ); 2) şərti cümlələrində konyunktiv (Conditionalis); 3) imkanı bildirən cümlələrdə konyunktiv (Potentialis); 4) vasitəli nitqdə konyunktiv (indirekte Rede).

Konyunktivin məna növlərinə bunlar daxildir: 1) qeyri-real, yəni yerinə yetirilə bilməyən və ya yerinə yetirilməmiş bir istəyi ifadə etmək üçün konyunktivdən istifadə; 2) qeyri-real, yəni yerinə yetirilə bilməyən və ya yerinə yetirilməmiş şərti ifadə etmək üçün konyunktivin istifadəsi; 3) qeyri-real müqayisəni ifadə etmək üçün konyunktivin istifadəsi; 4) potensial konyunktivin istifadəsi; 5) konyunktivin bəzi növlü güzəşt cümlələrdə istifadəsi; 6) vasitəli nitqdə konyunktivin istifadəsi.

Alman dilində qeyri-real istək gələcəyə və ya indiyə aiddirsə, o, inperfekt konyunktiv vasitəsilə, qeyri-real istək isə keçmiş zamana aiddirsə, onda plyuskvamperfekt konyunktiv va-

sitəsi ilə verilir. Qeyri-real müqayisə ifadə edən cümlələrdə konyunktivin istifadəsi "als", "als ob", "al wenn" bağlayıcıları ilə verilir. Bu dildəki "als" bağlayıcılı cümlələrdə söz sırası "als ob", "als wenn" bağlayıcıların iştirakı ilə yaranan cümlələrdən xeyli fərqlidir. Qeyri-real müqayisəli cümlələrdə hərəkətin eynizamanlılığı hallarında indiki və ya imperfekt zaman formaları işlədilir. Hərəkət eyni zamanda olmadıqda isə budaq cümlədə perfekt və plyuskvamperfektdən istifadə olunur. Eynizamanlı hərəkət üçün: indiki və ya inperfekt. Məsələn: /Er tut, als bemerke (bemerke) er nichts// - (Heç nə hiss etməmiş kimi davranır).

Hərəkətin eyni zamanda olmaması üçün: perfekt və ya plyuskvamperfekt. Məsələn: /Er tut, als ob er nichts bemerkt habe (bemerkt hatte)// – (Diqqət etməmiş kimi davranır (baxmamışdı)); /Er tut, als habe (hätte) er nichts bemerkt// – (Heç nə hiss etməmiş kimi davranır).

Vasitəli nitqdə konyunktivin semantikasına başqa bir yanaşma konyunktivin modal mənasını (qeyri-reallığın ifadəsi, ifadənin qeyri-mümkünlüyü) nəzərə çarpdırır. T.V.Stroyeva vasitəli nitqdə konyunktivin modallığını belə izah: "konyunktiv burada müəyyən semantik məzmuna malikdir: o, müəyyən sintaktik kateqoriyanı fərqləndirir və formalaşdırır, yəni məhz başqasının nitqini ötürür" [7, s. 4]. E.V.Qulıqa konyunktivin modallığını tarixi baxımdan təhlil edərək yazır: "Modal konyunktivin inkişafında son mərhələ modal konyunktivin vasitəli nitq ifadə edən qrammatik vasitəyə son çevrilməsidir. Alman dilində vasitəli nitqin konyunktivinin modallığın ifadə vasitəsi kimi səciyyə etmək tam yanlışdır" [3, s. 45]. T.V.Stroeva vasitəli nitqdə konyunktivin semantikasını düzgün əks etdirmişdir: konyunktivlə "başqasının nitqi"nin, başqasının söyləminin semantikasını vurğulanmasıyan əlavə semantik elementə malik olmaya da bilər və müəyyən kontekstdə bu əlavə məna çalarını ala da bilər" [7, s. 16].

Konyunktivin semantikasın ötərilik və fərziyyəvilik semləri xasdır. Konyunktivin əsas mənasına uyğun olaraq potensiallıq, yəni insanın fikrində mövcud ola biləcək hər şeyin işarələnməsini də qeyd etmək lazımdır [6, s.76]. Müəllifə görə, "konyunktivin istifadəsi üç əsas məqamın birləşməsi mühümdür: 1) zamanın fərqləndirilməsi; 2) modallığın müxtəlif çalarlarının formal fərqləndirilməsi; 3) mütləq və nisbi zaman mənalarının diferensial ifadəsi ilə. Konyunktivin preterital formalarının qrupu fərqləndirilir və konyunktivin indiki zaman forması onlara qarşı qoyulur" [6, s. 297].

Konyunktivin formaları zaman mənası ilə yanaşı, modal mənaları da ifadə edir. Konyunktivin zaman mənaları sistemi, infiktivdən fərqli olaraq, daha sadədir. Keçmişin zamanın işarələnmiş mənası plyuskvamperfektin sinonim kimi çıxış edən konyunktivin plyukvamperfekti və kondisionalis II formaları ilə ötürülür. Qeyri-keçmişin işarələnməmiş mənası prezens və konyunktivin preterit formaları, eləcə də kondisionalis I ilə verilir. İndiki ilə gələcək zaman formaların konyunktivanın modal mənasının spesifikliyinə görə (ötəri hadisə) fərqləndirilməsi aktual deyildir, çünki onlar, lazım gələrsə, leksik vasitələr və ya ümumi situasiyadan hasil olur [4, s. 59].

Mütləq mənanı ifadə etmək üçün ən çox konyunktivin preterital formaları – zaman formalarından istifadə olunur. Bunlara konyunktivin preterit, plyuskvamperfekt və kondisialis I və II daxildir. İstək, şərt, güzəşt, məqsəd bildirən cümlələrdə işlənir. Konyunktivasının preterital formaları sistemində zamana görə fərqləndirmənin olması fərqli bir xüsusiyyətdir: 1) konyunktivin preterit və kondisialis I indiki və gələcək zamana aid edilir; 2) plyuskvamperfekt keçmiş zamana aid edilir. Məsələn: /wenn ich jetzt Zeit hdtte/ və /wenn ich damals Zeit gehabt hdtte//. Birinci nümunədə hadisə indiki zamana, həmin anda mümkün ola bilənə aid edilir, ikinci nümunədə hadisə yalnız mümkün ola bilənə və indi artıq istisna olunan keçmiş zamana aid edilir. O.İ.Moskalskayanın yazdığı kimi, "konyunktivin preterital formaları haqqında bəhs olunan hadisənin gerçəkliyə ziddiyyət təşkil etdiyni əks etdirir" [6, s. 297].

Preterit və plyuskvamperfektin mənalarındakı modal fərqlilik haqqında fikirlər yetərincə dəqiq deyildir. Preterit-plyuskvamperfekt qarşılaşması sırf termporal xarakterlidir və plyuskvamperfektlə işarə edilən hadisənin mütləq isitsna edilməsi onun keçmiş plana aid edilməsindən hasil olur. A.L.Zelenetski və O.V.Novojilovanın yazdıqları kimi, "konyunktivin

preteriti ilə hadisənin indiki, hətta gələcək zamana aid edilməsi həmin söyləmlə ötürülən konkret situasiyadan asılıdır" [4, s. 77].

Konyunktivin preterital formaları həm sadə, həm də mürəkkəb cümlələrdə geniş yayılmışdır. Sadə cümlələrdə konyunktivin preterit və plyuskvamperfekti arzu, istək ifadə olunduqda işlədilir. Məsələn, sadə cümlədə: "…Sie würen abends nie zu Hause" [9], "Du würdest auch deinen Mann treffen" [10]; – tabesiz mürəkkəb cümlələrdə: "Er künnte mein Vater sein, aber mir gegenüber ist er sehr zurückhaltend" [10]; – mürəkkəb cümlənin müxtəlif tiplərinin baş və budaq cümlələrində: "Ich würde mir ein anderes Befürderungsmittel ausleihen, wenn ich jemand besuche" [10].

Konyunktivin imperfektində feillərin şəxs şəkilçiləri indikativdəki şəkilçilərlə eynidir. Qeyri-real müqayisə budaq cümləsi "als ob", "als wenn", "als" bağlayıcılar ilə daxil edilir. Budaq cümlədəki hərəkət baş cümlədəki hərəkətlə eyni zamanda baş verirsə, onda budaq cümlədə Prateritum konyunktivdə işlədilir. Budaq cümlədəki hərəkət baş cümlədəki hərəkəti qabaqlayırsa, onda onun tərkibində Plyuskvamperfekt (bəzən Perfekt) Konyunktiv işlədilir: */Er sieht so aus, als ob er krank wäre (sei)// (O, elə görünürdü ki, sanki xəstədir).* Bu cümlədə "als" bağlayıcısından sonra xəbərin təsriflənən hissəsi gəlir. Məsələn: */Er sieht so aus, als wäre er krank// (O, elə görünürdü ki, sanki xəstədir).* Alman dilində qeyri-real nəticə budaq cümlələrində konyunktiv "als dass" bağlayıcısı ilə işlədilir. Bu zaman baş cümlədə "zu" və ya "genug" zərfləri mütləq işlədilir. Məsələn: /Es ist zu spät, als dass er noch kommen konnte// (Onun hələ də gələ bilməsi üçün çox gecdir).

Konyunktivin araşdırılan işlənmə sahələrinə daha çox alman dilindəki bədii ədəbiyyat nümunələrində rast gəlinir. Məsələn: /Ziggy nickte. "Wir finden, er sollte mal einen Arzt aufsuchen. Vielleicht braucht er einen Psychiater. Und deswegen haben wir uns gedacht, dass wir in dieser Angelegenheit zussamenarbeiten könnten, weil Sie ihn doch auch suchen// (Ziqqi başını tərpətdi. "Biz hesab edirik ki, o, həkimə müraciət etməlidir. Bəlkə psixiatra ehtiyacı var. Ona görə də biz fikirləşdik ki, bu məsələdə birlikdə işləyə bilərik, çünki siz də onu axtarırsınız) [8, s. 56].

Alman dilində lazım formasının III şəxsi indikativ formasından güclü fərqlənir. Məsələn, (*Er komme – er kommt*). İndiki zaman lazım forması III şəxsin təkində iradi məna ifadə edir. Bu formanın iradənin ifadəsinin güzəşt, həmçinin arzu mənasında işlədilməsi geniş yayılmışdır. Danışanın iradəsinin icraçısı məlumdursa, əgər danışanın iradəsinin yerinə yetirilməsi mübtədanın fəaliyyəti ilə bağlıdırsa, onda lazım formasının indiki zamanı III şəxsin təkində danışanın iradəsini bildirmə funksiyasında çıxış edir. Bu zaman iradənin ifadəsində iki mənanı fərqləndirmək olar:

1) cümlə ümumi xarakter daşıyan, yalnız ayrıca fərd üçün deyil, hər kəs üçün vacib olan tələbi (əmr və ya qadağanı) özündə ehtiva edir. Məsələn: /Zur Weisheit bekehre sich jeder und meide das Böse, verehre die Tugend//; 2) cümlə yalnız bir hala aid, konkret şəxs üçün vacib tələbi (əmr, qadağanı) bildirir. Məsələn: / Wer zweifelt sollte, sehe die Königin von Navarra nur den Kopf tragen und die Füße setzen//.

Bu qrupa yerinə yetirilməsi mübtədadan asılı olmayan arzuları aid etmək olar. Onların hamısı mübtədanın ya mücərrəd isimlə, ya da cansız isimlə ifadə olunduğu ifadələr və ya elə ifadələrdir ki, subyektin canlı isimlə ifadə olunmasına baxmayaraq, danışanın iradəsinin yerinə yetirilməsi mümkün deyildir. Bu da feil və bütövlükdə söyləmin semantikası ilə bağlıdır. Məsələn: /Ist es uns nicht gegeben, das Reich, das ersehnte, zu schauen, so lasst uns doch bauen, auf dass wir ersteht aus dem Grauen, und Friede einst sei// (Əgər arzuladığımız səltənəti görmək bizə verilməsə, biz onu quraq ki, dəhşətdən qalxıb və bir gün rahatlıq əldə edək).

Cümlənin qeyri-gerçəkliyini ifadə etmək üçün lazım formasının preterital formasından istifadə edərkən biz icra olunmaması yalnız danışana məlum olan söyləmlə qarşılaşırıq. Hərəkət müəyyən şərtlər daxilində həyata keçirilə bilərdi, lakin reallıqda həyata keçirilmədi, çünki onun həyata keçirilməsi üçün lazım olan şərait yox idi. İfadə artıq reallaşmayan bir fərziyyə

kimi çıxış edir, çünki söhbət keçmiş zamandan gedir. Məsələn: /Er hätte damals vierzig Grad Fieber gehabt und wäre, wenn er seine Pflicht getan hätte, wohl gestorben//. /Er wäre gestorben/ – yəqin ki, öləcəkdi, amma, əslində, ölmədi, çünki nəsə buna mane oldu).

Lazım şəklinin preterital formalarının xarakterinə görə icrası mümkünsüz olan hərəkətlərin təsvir olunduğu cümlələrdə işlədilməsi də maraqlıdır. Məsələn: /Da wir lebenslang die Gleichen sind, hätte Henri seine Hauptstadt, so groß sie war, auf einmal umarmen und auf beide Wangen küssen wollen// (Bir halda ki, biz bütün həyatımız boyu tənhayıq, Anri öz paytaxtını qucaqlamaq, o nə qədər böyük olsa da və hər iki yanağını eyni zamanda öpmək istəyinə düşdü). Bu nümunədə şərtləndirici məqam hərəkətin mümkünsüzlüyüdür. Nəzərdən keçirilmiş hallar lazım şəklinin keçmiş zaman formasının əsas, qeyri-real-təxminetmə funksiyasını təmsil edir [5, s. 48].

Burada üstünlük təşkil edən məna kimi hərəkətin yerinə yetirilməsinin çətinliyi fikri ilə əlaqəli arzu çıxış edir. Məsələn: /Möchte es doch, nachdem Christian sich entschlossen, den wissenschaftlichen Beruf fahren zu lassen, noch nicht zu spät für ihn sein, bei seinem Prinzipal Mr. Richardson etwas Tüchtiges zu lernen, und möchte seine merkantische Laufbahn von Erfolg und Segen Begleitet sein// (Kristian elmi karyerasını dayandırmaq qərarına gəldikdən sonra öz direktoru cənab Riçardsondan faydalı bir şey öyrənmək çox gec olmasın və onun ticarət karyerasının uğurlar və xeyir-dualarla müşayiət olunmasını arzu etsin). Bu nümunədə arzu etmək çaları arzu şəklinin preteriti vasitəsi ilə ifadə olunmuşdur.

İşin elmi nəticəsi: alman dilində konyunktivin zaman formaları üçün mütləq və nisbi anlamda işlədilmə əsas əlamətdir. Alman dilində konyunktiv çalarları mikrokontekstlə təyin olunan subyektiv modallığı ifadə edir. Arzu şəkli sintaktik kateqoriyadır və onun aktuallaşması söyləmin tipi ilə bağlıdır. Bu kateqoriya konkret modallıq mənasından məhrumdur və onun ifadəsinə variantlar xidmət edir. Modallıq, aspektuallıq və pemporallıq kateqoriyalarının reallaşması sintaktik səviyyədə baş verir.

İşin elmi yeniliyi: azərbaycandilli auditoriyada alman dilinin qrammatikasının tədrisində konyunktivin tədrisi zamanı yaranan çətinliklər həmin dillərin struktur və qrammatik xüsusiyyətləri ilə şərtlənmişdir. Obyektiv xarakterli bu çətinlikləri törədən səbəblərin tədqiqi edilməsi işinin yeniliyi kimi dəyərləndirilə bilər.

İşin tətbiqi əhəmiyyəti: işin nəticələrindən öyrənilən dillərdə subyektiv modallığı və semantik-funksional sahələrin təsvirinə tətbiqi edilə bilər. Tədqiqatın nəticələri və materialları alman dilinin praktiki və nəzəri qrammatikası, üslubiyyat və mətnin təhlili dərslərində, həmçinin praktiki məşğələlərdə istifadə oluna bilər.

Ədəbiyyat

1. Veysəlli, F.Y. German dilçiliyinə giriş / F.Y.Veysəlli, – Bakı: Təhsil NPM, − 2003, − 408 s.
2. Veysəlli, F.Y. Alman dilinin qrammatikası / F.Y.Veysəlli, − Bakı: Mütərcim, − 2021.
3. Гулыга, Е.В. Временное и модальное значение наклонений в сложноподчинённом предложении // Иностранные языки в школе. – М., − 1959, №1. − с. 67-78.
4. Зеленецкий, А.Л., Теория немецкого языкознания / А.Л.Зеленецкий, О.В.Новожилова. −М.: Издательский центр “Академия”, − 2003. – 400 с.
5. Марфинская, М.И. Грамматика немецкого языка / М.И.Марфинская, – М., − 2001, − 80 с.
6. Москальская, О.И. Грамматика немецкого языка: Морфология: / О.И. Москальская. −Москва : Изд-во лит. на иностр. яз., − 1956. − 393 с.
7. Строева, Т.В. вопросу о модальности в германских языках (Косвенная речь в нем. яз.): Автореферат дис. док. филол. наук. – Ленинград, − 1950. − 31 с.
8. Frisch, M. Homo faber : ein Bericht / Max Frisch. – 85. Aufl. – Frankfurt am Main: Suhrkamp, − 2017. – 202 s.
9. Remarque, E.M. Drei Kameraden / E.M.Remarque. − 1997. − 364 s.
10. Spranger, G. An der schünen blauen Donau / G.Spranger. − 1972. − 316 s.

S.A.Khasiyeva

Means of Expression of Konjunctive II in Literary Works in German

Summary

In the article it is mentioned that the Konjunctive II is the condition form of the verb and expresses unreal, but possible, assumed, desired actions. Konjunctive II is widespread in Modern German. Forms of Konjunctive II are widely used in both simple and compound sentences. They are used in both absolute and relative meanings. The meaning and use of Konjunctive tense forms in many cases do not coincide with their use in the predicate form. Konjunctive forms differ from predicate forms in terms of time and modality.

Key words: *conjunctive, grammar, semantics, modality, verb, microcontext, sentence*

С.А.Хасиева

Средства выражения немецкого коньюнктива II
в художественных произведениях

Резюме

В статье отмечается, что конъюнктив II – это форма сослагательного наклонения глагола, которая выражает действие не реальное, а возможное, предполагаемое или желательное. Коньюнктив II широко распространено в современном немецком языке. Формы коньюнктива употребляются как в простых, так и в сложных предложениях. Они могут выступать как в абсолютных, так и в относительных значениях. Значение и употребление временных форм конъюнктивы во многих случаях не совпадают с их значением и употреблением в изъявительном наклонении. Коньюнктивные формы отличаются от изъявительных форм временным и модальным значением.

Ключевые слова: *коньюнктив, грамматика, семантика, модальность, глагол, микроконтекст, предложение*

Rəyçi: filol.f.d. Ş.Ə.Əliyeva

Redaksiyaya daxil olub: 12.04.2024